# M.S.ORDUBADİNİN YORULMAZ TƏDQİQATÇISI

**Ş.İ.HÜSEYNOVA**
*Bakı Dövlət Universiteti*

Tarixilik anlayışı və məxsusən tarixi roman barədə prof. Yavuz Axundovun apardığı tədqiqatlar diqqətəlayiqdir. Onun bu sahədə yazdığı «Azərbaycan sovet tarixi romanı» (1979), «Tarix və roman» (1988), «Məmməd Səid Ordubadi» (1997), «Tarixi roman yeni mərhələdə» (1998), «Tarixi roman: mərhələlər, problemlər» (2005) monoqrafiyaları və bir çox yeni məqalələri Azərbaycan ədəbiyyatında tarixi mövzunun öyrənilməsi və roman janrında tarixiliyin araşdırılması baxımından nəzəri fikrimizi orijinal düşüncələrlə zənginləşdirmişdir. Tədqiqatçı-alim haqlı olaraq göstərir ki, romanda tarixi keçmişin ruhunu və koloritini vermək imkanı daha böyükdür (1, s.7). Həqiqətən də zəngin həyat materialını ehtiva etmək, zamanın ziddiyyətlərini hərtərəfli açmaq və onu mənalandırmaq, hadisə və xarakterləri əhatəli şəkildə hərəkətdə vermək, dolğun obrazlar yaratmaq, rəngarəng bədii ifadə vasitələrindən istifadə etmək cəhətdən epopeyadan sonra ən böyük epik janr olan romanın çox geniş imkanları vardır. Lakin XIX əsrdən əvvəl yazılmış tarixi romanlar, əsasən didaktik-əxlaqi mahiyyət daşımış və bu əsərlərdə tarixi roman üçün vacib şərt hesab edilən tarixilik prinsipi gözlənilmişdi. Odur ki, realist tarixi romanın meydana gəlməsi bədii ədəbiyyatın ciddi nailiyyəti kimi qiymətləndirilmişdir (1, s.7).

Prof. Y.Axundov müasirlik və tarixilik bədii-estetik kateqoriyalarının qarşılıqlı münasibətlərini də düzgün elmi mövqedən qiymətləndirir. Burada onun öz fikirlərini əsaslandırmaq üçün tanınmış yazıçı S.Zlobindən gətirdiyi sitat da çox uğurludur. Rus ədibi yazır: «Tez-tez bizim ədəbiyyatçılar, tənqidçilər və romançılar özləri «müasir» və «tarixi» roman anlayışlarını qarşı-qarşıya qoyurlar. Mən tarixi romanı müəyyənləşdirərkən onu müasir romana qarşı qoymuram, çünki «tarixi» məfhumunun özü «müasir» məfhumuna qarşı qoyula bilməz. İndi və keçmiş – bunlar əkslik deyil. Tarix bu gün yenidən başlamaq üçün dünəndən qurtarmır. Bu, vahid prosesdir» (1, 11). Şübhəsiz, tarixilik ilə müasirliyin belə bir dialektik vəhdətini bütövlükdə yaradıcılıq prinsipi kimi qəbul etmək ədəbi uğuru təmin edən amildir.

Bu sözlər sanki «Qılınc və qələm» haqqında deyilib.

Prof. Y.Axundlu bədiilik və tarixiliyin münasibətindən danışarkən göstərir ki, «Sənətkar hər bir tarixi faktı, sənədi saf-çürük etməli, onu mənalandırmalı, obrazlı şəkildə təsvir etməyi bacarmalıdır» (1, s.11). Görkəmli tədqiqatçı milli xarakterin tarixi romanda səciyyəsini də «hər cəhətləri ilə» əks etdirməsində görür (1, 14).

Prof. Y.Axudlu yazır: «Tarixi romanlarda dövrün ziddiyyətlərini açmaq, tipik və konkret hadisələr vasitəsinə qüvvələr arasındakı kəskin

mübarizəni təsvir etmək də mühüm şərtdir. ... tarixi romanda konflikt öz kəskinliyi, dramatikliyi ilə seçilməlidir. İki zidd, barışmaz qüvvəni təmsil edən obrazlarda dövrün mütərəqqi və mürtəce qarşıdurması əks olunmalıdır» (1, s.200). Prof. Y.Axundlunun tarixi roman janrının tədqiqində göstərdiyi elmi xidmətləri yüksək qiymətləndirən tənqidçi Vaqif Yusifli onun «Tarixi roman yeni mərhələdə» kitabına yazdığı ön sözdə haqlı olaraq göstərir ki, «Yavuz müəllim, tarixi dövrü, şəraiti, sənətkarın yaşadığı epoxanı düzgün ədəbi meyarlarla qiymətləndirir» (3, s.4). «Tarixi faktların və sənədlərin romanda mühüm və əhəmiyyətli faktor olduğunu unutmayan müəllif onu da dönə-dönə qeyd edir ki, tarixi olduğu kimi «bədiiləşdirmək» sənətin qanunlarına ziddir. Hər hansı yazıçı tarixə ona görə müraciət edir ki, yaşadığı dövrün bir sıra ictimai-siyasi problemlərinə cavab tapa bilsin. Çünki tarixin öz qanunauyğunluqları var və zamanın müəyyən dövrlərində tarix hər dəfə yenidən təkrar oluna bilər. Tarixin verdiyi ibrət dərslərini isə unutmaq olmaz. Azərbaycan tarixi məhz belə bir zəngin, son dərəcə maraqlı hadisələrlə diqqəti cəlb edir. Tarixi roman yazmağa başlayan müəllif də ilk növbədə, özünə belə bir sual verməlidir: mən tarixdə bu günümüzlə səslənən hansı məqamlara üz tuturam? Məhz tarixi müasir gözlə oxuyan yazıçı böyük sənət uğuru qazana bilər» (2, s.5-6).

Y.Axundlunun «M.S. Ordubadi (həyatı, mühiti və yaradıcılığı)» adlı monoqrafiyası (2) görkəmli Azərbaycan yazıçısı M.S.Ordubadinin həyatını, yaşadığı keşməkeşli dövrü və geniş yaradıcılığını öyrənmək baxımından olduqca əhəmiyyətlidir. 1997-ci ildə işıq üzü görən bu əsərdə M.S.Ordubadinin 50 illik dövrü əhatə edən məhsuldar yaradıcılığı ardıcıllıqla işıqlandırılmışdır. Burada ədibin indiyə qədər tədqiq olunmamış əsərləri və həyatının öyrənilməmiş tərəfləri haqqında müfəssəl söhbət açılmışdır.

Prof. Y.Axundlunun qeyd etdiyi kimi «M.S.Ordubadi elə sənətkarlardandır ki, onun çoxsahəli yaradıcılığı həm sağlığında, həm də ölümündən sonra daim tədqiqatçıların diqqətini çəkmişdir. M.Arif, M.Cəfər, C.Xəndan, Ə.Sultanlı, Mir Cəlal, A.Zamanov, K.Talıbzadə, B.Nəbiyev, Q.Xəlilli, F.Vəzirova və başqa görkəmli ədəbiyyatşünaslar Ordubadi sənətinin müxtəlif problemləri ilə bağlı məqalələr, monoqrafiyalar yazmış, çap etdirmişlər. Lakin bütün bunlarla yanaşı, ədibin yaradıcılığı hələ bütövlükdə tam halda öyrənilməmişdir.

Y.Axundlu özü də 30 ildən artıq araşdırmalar aparmış və tədqiqatının bir hissəsini ayrı-ayrı məqalələr şəklində çap etdirmiş, namizədlik və doktorluq dissertasiyalarında, eləcə də «Azərbaycan sovet tarixi romanı» (1949), «Tarix və roman» (1988) monoqrafiyalarında M.S.Ordubadi ilə əlaqədar məsələlərdən müəyyən qədər bəhs açmışdır. Lakin Ordubadi ilə əlaqədar, bu böyük sənətkara layiq yaradıcılığının bütün tərəflərini tam əhatə edən əsərə hələ də ehtiyac vardır. Y.Axundlu monoqrafiyasında ədibin «Həyatım və mühitim» adlı memuarı, «İki cocuğun Avropaya səyahəti» romanı barədə ədəbiyyatşünaslığımızda mövcud olan sözü hiss ediləcək qədər yeni bir istiqamətdə genişləndirmiş, «Qrenadanın süqutu» tarixi dramı, «Qanlı sənələr» adlı əsəri haqqında ilk dəfə söz açmışdır. Müəllifi Respublika Əlyazmalar İnstitutunda saxlanılan çap olunmamış, indi də aktuallığını qoruyub saxlayan material cəlb etmişdir.

Monoqrafiyanın birinci bölməsində M.S.Ordubadinin «Həyatım və

mühitim» adlı iri həcmli memuarından istifadə ilə böyük yazıçının həyatı və mühiti, onun tərcümeyi-halı haqqında geniş təsəvvür yaradılır. Ordubadinin xatirələrindən həmin dövrün mürəkkəb ictimai-siyasi hadisələri, qədim yurd yeri olan Ordubadın tarixi və təbii sərvətləri, xalqın güzəranı haqqında və başqa hadisələr barəsində geniş məlumat əldə edirik. Ordubadinin atası Hacıağa Məhəmməd oğlu şair olmuşdur; «Fəqir» təxəllüsü ilə gözəl şerlər yazmışdır. Hacıağa 1836-cı ildə Ordubadda kiçik tacir ailsində anadan olmuşdur. Anası Nənəqız Uşdibin kəndindən Pənah adlı bağbanın qızıdır. Evləndiyi zaman Hacıağa çox kasıb imiş. Ordubadi «Familyamız» adlanan hissədə atasının kasıblıqla əlaqədar məhrumiyyətlərə qatlaşmasını, özünün şahidi olduğu hadisələri qələmə almışdar. H.Fəqir 1886-cı ildə kasıbçılıq içərisində vəfat etmişdir. Onun bir divanı qalmışdır. Atasının vəfatından sonra anası Karapet Babayevin fabrikində işə girir. 1886-cı ildə Ordubadi 14 yaşında ikən özü də həmin fabrikdə işə düzəlir. O, ilin altı ayını oxuyur, altı ayını isə işləyir. Xatirələrində M.S.Ordubadinin oxuduğu bu məktəblərdə dərs deyən, onu şer yazmağa həvəsləndirən müəllimlərdən də söz açılmışdır.

Y.Axundlu kitabında Ordubadinin xatirələrindən istifadə edərək, böyük ədibin tərcümeyi-halı, mühiti haqqında yeni faktları kifayət qədər ətraflı şərh edir, onun bədii istedadının və dünyagörüşünün inkişafına təsir edən amillər üzərində xüsusi olaraq müfəssəl dayanır. M.S.Ordubadinin xatirələrindən və bunlara əsaslanan Y.Axundlunun qeydlərindən belə qənaətə gəlmək olur ki, ədibin hərtərəfli inkişafında M.T.Sidqinin bir müəllim və maarifpərvər şəxsiyyət kimi rolu böyük olmuşdur. Məhz M.T.Sidqinin təsiri ilə onun şagirdlərindən M.S.Ordubadi, H.Cavid, B.Kəngərli, Ə.Qəmküsar, diplomat İ.Əbilov, R.Təhmasib, Ə.Şərif kimi görkəmli şəxsiyyətlər yetişmişdir.

Y.Axundlu kitabının ikinci bölməsində Ordubadinin bədii yaradıcılığından bəhs edir. Ordubadi XIX əsrin sonlarından başlamış və Ömrünün 50 illik bir dövrünü yaradıcılıqla məşğul olmuş, irili-xırdalı 6000 əsər yazmışdır.

Y.Axundlunun kitabından oxuyuruq: «1906-cı ildə Tiflisdə «Qəflət», 1907-ci ildə «Vətən və hürriyyət» kitablarının nəşr edilməsi onu yaradıcılığa daha da möhkəm bağlamış, 1906-cı ildə «Molla Nəsrəddin» jurnalının nəşrə başlaması isə istedadı qarşısında yeni imkanlar açmışdır. Ədibin təxminən 4000 felyeton və şer,1800 məqalə, digər janrlarda onlarla əsərlər yazdığını nəzərə alsaq onun yaradıcılıq aləminin genişliyi barədə bitkin təsəvvür əldə edə bilərik»(2, s.24).

Y.Axundlu bu kitabında M.S.Ordubadinin bütün irsini geniş tədqiq etmiş, ədibin çoxcəhətli yaradıcılığını, müxtəlif ədəbi növ və janrlarda yaratdığı əsərləri haqqında orıjınal fikir söyləmişdir. Tədqiqatçı alimin göstərdiyi kimi, M.S.Ordubadi hələ Culfada ikən «Şahzadə xanım toyda» və «Əndəlisin islamları» əsərləri, «İki cocuğun Avropaya səyahəti» romanı üzərində işləmişdir. «Qafqazın inqilabi əxirəsi» adlı əsəri də 1920-ci ilə qədərki dövrdə yazılmışdır.

Y.Axundlu yazır ki, «Sovet dövründə ədibin onlarla kitabı çap edilsə də, onun arxivində hələ işıq üzü görməyən onlarla əsərlər var»(2, s.55). Müəllif Ordubadinin RƏİ-da saxlanılan arxivindəki «Polad qız», «Rəna», «Sədəf», «Günəş», «Dilbər» kimi bitkin, «İldırım Bəyazid» adlı natamam pyeslərindən, «Cahangir və Zərifşan» adlı romanından söz açır.

Y.Axundlu Ordubadinin müharibə illərində də məhsuldar işlədiyini qeyd edir. Böyük sənətkar bu dövrdə beş pərdəli «İntizar çəkənlər» komediyasını, sonrakı illərdə «Böyük qurtuluşda» dramını yazmışdır.

Y.Axundlu Ordubadinin tərcüməçilik fəaliyyətindən də bəhs etmiş, göstərmişdir ki, Puşkinin «Boris Qudunov», «Bağçasaray fontanı» əsərlərini müasir şairlərdən A.Surkov, İ.İsakovski, M.Rılski və başqalarının şerlərini, Çin şairi Emi Siaonun «Bizim taleyimiz belədir» adlı şerini, Nizami Gəncəvinin «İsgəndərnamə» poemasının böyük bir hissəsini Azərbaycan dilinə tərcümə etmişdir.

Y.Axundlu Ordubadinin böyük nəsrindən ayrılıqda bəhs etmiş, «Qanlı sənələr», «Dumanlı Təbriz» və «Qılınc və qələm» əsərlərinin geniş təhlilini vermişdir. «Qanlı sənələr»də 1905-1907-ci il erməni-müsəlman qırğınından bəhs edilmış, «Dumanlı Təbriz»də İran inqilabının və Səttarxan hərəkatının güclü və zəif cəhətləri geniş planda əks etdirilmiş, çox maraqlı obrazlar silsiləsi yaradılmışdır.

Y.Axundlu yazır ki, «Başqa tarixi romanlarda olduğu kimi, «Qılınc və qələm»i yazarkən ədib uzun müddət ciddi hazırlıq işi aparmış, Nizaminin dövrü, mühiti, müasirləri, bədii yaradıcılığı və s. ilə əlaqədar tədqiqat aparmışdır. Ədibin Firdovsi, Rudəki, Əbül-Üla haqqında məqalələri, «XII əsrdə Azərbaycan ədəbiyyatı və onun Şərq klassik ədəbiyyatına təsiri», «Nizaminin dövrü və həyatı», «Nizami dövründə ədəbiyyat», «Böyük şairin yaşadığı mühit» elmi əsərləri, Qara Məlik haqqında elmi-publisist yazısı və s. vardır».

Bütün bunlar göstərir ki, ədib «Qılınc və qələm»i yazarkən Nizami yaradıcılığını və dövrünü dərindən öyrənmişdir. «Qılınc və qələm» əsərində Azərbaycan Atabəylər dövlətinin yaradıcısı Atabəy Eldənizin ölümündən (1175) sonrakı təxminən 50 illik bir dövrün ictimai-siyasi hadisələrindən bəhs edilir. 50 illik dövrün hadisələrini qələmə almaq nə qədər çətin olsa da, Ordubadi bunun öhdəsindən bacarıqla gəlmişdir. Y. Axundlu çox düzgün olaraq göstərir ki, «Qılınc və qələm» əsəri böyük şair və mütəfəkkir Nizaminin həyatını əks etdirən roman olmaqla qalmayıb, dövrün ictimai təzadlarını geniş epik lövhələrlə canlandıran misilsiz sənət nümunəsi kimi ortaya çıxmışdır»(2, s.104).

Y.Axundlu əsərin ideya-məzmununu, mahiyyətini belə açır: «Roman qılıncla qələmin, ağılla gücün ittifaqından söz açır. Müəllifin fikrincə, bütün qələbələrin rəhni də məhz bu ittifaqdan asılıdır» (2, s.106). Prof. Y.Axundlunun «M.S.Ordubadi» monoqrafiyası böyük sənətkarın həyat və yaradıcılığının öyrənilməsi sahəsində yeni və olduqca əhəmiyyətli bir əsər kimi qiymətləndirilə bilər.

**QEYDLƏR:**


1. Axundov Yavuz. Azərbaycan sovet tarixi romanı. B.: Yazıçı, 1979, 238 s.
2. Axundlu Yavuz «M.S.Ordubadi (həyatı, mühiti və yaradıcılığı)», 1997, 350 s.
3. Axundlu Yavuz Tarixi roman yeni mərhələdə, 1998, 176 s.
4. Yusifli Vaqif. Tarixi romanlarımızın tədqiqi (ön söz). Yavuz Axundlunun «Tarixi roman yeni mərhələdə» kitabında. B.: Maarif, s. 3-6.
5. Yavuz Axundlu. Tarixi roman: mərhələlər, problemlər. 2005, 550 s.

## НЕУТОМИМЫЙ ИССЛЕДОВАТЕЛЬ М.С.ОРДУБАДИ

**Ш.И.ГУСЕЙНОВА**

**РЕЗЮМЕ**

Проф. Я.Ахундлы – выдающийся исследователь азербайджанской литературы, особенно азербайджанского исторического романа. Его монографии «Советский азербайджанский роман», «История и роман», «Исторический роман в новом этапе» широко распространены и тепло приняты.

В научных исследованиях Я.Ахундлы основное место занимает жизнь М.С.Ордубади – большого мастера азербайджанского исторического романа. Проф. Я.Ахундлы свои монографии и статьи, освещающие проблемы исторического романа, посветил наследию М.С.Ордубади, но на этом он не останавливается и издаёт монографию «М.С.Ордубади (жизнь, обстоятельство и творчество)».

В статье говорится о всестореннем изучении творчества М.С.Ордубади ученым-исследователем Я.Ахундлы и проанализировано отношение автора к задачам историчности и жанру романа.

## M.S.ORDUBADYES A TİRELESS ENVESTİGATOR

**Sh.İ.HUSEYNOVA**

**SUMMARY**

Prof. Y.Akhundlu the famous envestigator of Azerbaijan literature, specially Azerbaijan historical novels. His novels as “The novel of Azerbaijan Soviet history”, “History and novel”, “Historical novel in new stage” are wide spread and met. The master of Azerbaijan historical novel. M.S.Ordubadys life and creative activity has plaid great role in prof Y.Aкhundovs research worкs prof. Y.Aкhundla in his novels and articles devoting to the historical novels has peid attention to M.S.Ordubady s worк at the same time has printed the novel about M.S. Ordubady s life and creative activity. İn this article investigator Y.Aкhundlu has the scientific and practical analysis of carried out research worк about M.S.Ordubady s life and creatife activity.